*A.İmanova. Gülsüm xanım Nərimanova haqqında yeni araşdırmalar (şəxsi arxiv sənədləri əsasında) // Əlyazmalar yanmır. 2021, №2(13), s.103-111.*

UOT: 94 (55); 82

**Aytən İmanova**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26.*
*e-mail: imanova_ayten@hotmail.com*

# GÜLSÜM XANIM NƏRİMANOVA HAQQINDA YENİ ARAŞDIRMALAR (ŞƏXSİ ARXİV SƏNƏDLƏRİ ƏSASINDA)

**Xülasə**

*Azərbaycan tarixşünaslığının xarakterik cəhətlərindən biri ədəbiyyatımızla üzvi surətdə bağlı olmasıdır. Azərbaycan dövlətinin fərqli tarixi dönəmlərində həm də ictimai-siyasi fəaliyyət yürüdən ədəbi xadimlərimizin şəxsi arxivlərində cəmlənmiş materiallar tariximizin mühüm və qaranlıq tərəflərinə aydınlıq gətirilməsində, bəzi tarixi faktların müəyyənləşdirilməsində tədqiqatçılar üçün əvəzolunmaz mənbədir.*

*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda orta əsr əlyazma abidələri ilə yanaşı Azərbaycanın XIX-XX əsrlər ədəbiyyat və ictimai xadimlərinin də şəxsi arxivləri mühafizə olunur. Əlyazmalar İnstitutuna ilk şəxsi arxiv 1928-ci ildə daxil olmuşdur. Əsası M.F.Axundzadənin arxivi ilə qoyulan bu xəzinə Azərbaycanın 32 görkəmli şəxsiyyətinin şəxsi materialları ilə tamamlanmışdır. Müxtəlif xarakterli bu materiallar fərqli durumlarda yaşamış ziyalılarımızın təkcə həyata baxışını və müasirlərinə münasibətini anlamaq deyil, həm də dövrün xarakterik siyasi, iqtisadi və mədəni xüsusiyyətlərini araşdırmaq üçün də qiymətli mənbələr sayılır. Bu materiallarda tarixə, ədəbiyyata, incəsənətə aid müxtəlif maraqlı faktlara rast gəlinir.*

*Nəriman Nərimanova məxsus sənədli materiallar Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 18 saylı şəxsi arxivdə cəmlənmişdir. N.Nərimanovun şəxsi arxivinə Gülsüm xanım Nərimanovaya aid 150 sənəd daxildir. Bura G.Nərimanovanın tərcümeyi-halı, əsərləri, oğlu Nəcəf Nərimanov haqqında xatirələri və onunla məktublaşmaları, hamilik və ümumiyyətlə ictimai fəaliyyəti ilə bağlı sənədlər daxildir. Gülsüm xanın Nərimanova N.Nərimanovun yalnız ömür-gün deyil, həm də əqidə yoldaşı olmuş, onunla çiyin-çiyinə çalışmışdır. Əsasən xeyriyyəçiliklə məşğul olan bu xanımın Bakıda açdığı əlillər və körpələr evi, uşaq bağçaları 50-ci illərin sonlarına kimi fəaliyyət göstərmişdir.*

*Bu baxımdan Gülsüm xanım Nərimanovaya aid materiallar XX əsrin I yarısında ölkədə baş vermiş ictimai-siyasi dəyişiklikləri, Azərbaycan qadınının cərəyan edən tarixi hadisələrin burulğanında iştirakını öyrənmək baxımından zəngin qaynaqdır.*

***Açar sözlər:*** *Gülsüm xanım, şəxsi arxiv, uşaq evi, Nəcəf, məktub.*

**Giriş**

Müəyyən zaman kəsiyində fəaliyyət göstərən tarixi şəxsiyyətlərin yalnız ictimai fəaliyyəti deyil, şəxsi həyatı da həmişə cəmiyyətin diqqət mərkəzində olmuşdur. Bildiyimiz kimi, XIX əsrin sonu – XX əsrin əvvəlləri tarixin siyasi və mədəni hadisələrlə zəngin bir dövrü kimi xarakterizə olunur. Bu zaman çərçivəsində yaşayıb-yaradan və fərqli ictimai zümrəyə mənsub ziyalılarımızın şəxsi arxivlərində onların həm yaradıcılığını, həm də ictimai fəaliyyətlərini əks etdirən materiallar, epistolyar irsləri, şəxsi sənədləri və ailə fotoları qorunur.

Gülsüm xanım Nərimanova Azərbaycan xalqının tanınmış siyasi-ictimai xadimi Nəriman Nərimanovun həyat yoldaşı olmuşdur. XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşamış Nəriman Nərimanovun Azərbaycanın ictimai fikir və mədəniyyət tarixində özünəməxsus yeri vardır. N. Nərimanov Azərbaycan SSR Xalq Komissarları Sovetinin ilk sədri (28 aprel 1920 – 7 may 1922) və sonradan SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasından ilk sədri (30 dekabr 1922 – 19 mart 1925) olmuşdur. O, “Nadanlıq” və “Şamdan bəy”, “Bahadır və Sona” və “Pir”, “Həftə fəryadı” və “Cümə söhbəti” kimi əsərləri ilə Azərbaycan ədəbiyyatı tarixində görkəmli dramaturq, yazıçı və publisist kimi iz qoymuşdur. Bu nöqteyi-nəzərdən dünya tarixində iki Cahan savaşının, Rusiya tarixində iki inqilabın və siyasi çevrilişlərin, Azərbaycan tarixində müstəqil dövlət quruculuğu və siyasi müdaxilə, millətlərarası ədavət və soyqırımın baş verdiyi dönəmdə yaşayan, Nəriman Nərimanov kimi görkəmli şəxsiyyətin həyat yolunu paylaşan Gülsüm xanım Nərimanovanın şəxsi arxivinin materialları XX əsrin I yarısının tarixini araşdırmaq üçün xüsusi əhəmiyyət kəsb edir.

Gülsüm xanım Əliyeva 1900-cu ilin yanvar ayında Bakıda, Şamaxı rəiyyəti Mir Kazım ağa ilə Çələbi bəy qızı Töhfə xanımın ailəsində anadan olmuşdur [8]. Ancaq özü yazdığı tərcümeyi-halında doğum tarixini 1898-ci il kimi qeyd etmişdir.

Gülsüm xanım Nərimanova bir çox türk qızları kimi ilk təhsilini evdə almışdır. Qeyd etmək lazımdır ki, “türk qızları” ifadəsi G.Nərimanovanın özünə məxsusdur. Şəxsi sənədləri arasında saxlanılan və özünün yazdığı tərcümeyi-halında bu ifadəyə dəfələrlə müraciət etmişdir [3, 4, 5]. Hələ çox gənc ikən ona Nəriman Nərimanovla izdivac təklif olunmuşdu. Bu evliliyə müxtəlif tədqiqatçılar tərəfindən fərqli yanaşılmışdır. Bəzi iddialara görə N.Nərimanov Gülsüm xanımla onun maddi imkanlarına görə ailə qurmuşdur. Buna sübut olaraq maarifçi ziyalı İsa bəy Aşurbəylinin məktubu göstərilir. İsa bəy bu məktubunda N.Nərimanovun vaxtilə onun qohumu (baldızı) olan Sona xanımla məhz cehizinə görə evlənmək istədiyini qeyd etmişdi. Tarixçi Firdovsiyyə Əhmədova isə N.Nərimanovun ailəsinin problemləri və ictimai fəaliyyəti ilə bağlı olaraq, gec ailə həyatı qurduğu fikrindədir. Bildiyimiz kimi, 1889-cu il yanvar ayının 20-də N.Nərimanovun atasının qəfil vəfatı ilə ailəsinin bütün çətinlikləri onun üzərinə düşür. N.Nərimanovun Bakıdakı Xatirə muzeyinin direktoru Kəmalə xanım Hüseynova da Gülsüm xanımın ailəsinin varlı olduğunu qeyd edir. Fikrimizcə, bütün bu mülahizə və iddialara ən düzgün cavabı G.Nərimanovanın özü vermişdir. Gülsüm xanım tərcümeyi-halında əslən Şamaxıdan olan ailəsinin çox varlı olduğunu, lakin babasının bacarıqsızlığı üzündən zamanla müflis vəziyyətinə düşdüyünü qeyd etmişdir. Məhz buna görə də onun vəfatından sonra Gülsüm xanımın atası erkən yaşlarından əmək fəaliyyətinə başlamalı olmuş və Bakıda məskunlaşmışdır [4]. Aralarında çox böyük yaş fərqi olmasına baxmayaraq (o zaman N.Nərimanovun artıq 43 yaşı var idi), Gülsüm xanım bu təklifə çox sevinmiş və qəbul etmişdi. Çünki özünün dediyinə görə, Nərimanın bütün ailəsinin qadınları açıq, yəni çadrasız gəzirdilər [5]. Onlar 1915-ci ildə ailə

həyatı qurdular. Bu evlilikdən 1919-cu il dekabr ayının 19-da Nərimanovlar ailəsinin ilk və yeganə övladı Nəcəf dünyaya gəlmişdi [10].

Lakin N.Nərimanovla evlilik həyatı, gözlənildiyi kimi, Gülsüm xanım üçün təkcə çadrasız və sərbəst gəzmək, müntəzəm olaraq kino və teatr tamaşalarını seyr etmək olmadı. O, həyat yoldaşının yaxın silahdaşına və dostuna çevrilir.

Tarix ən ədalətli hakimdir və zamanla o öz hökmünü verir. Adətən ziyalılarımızın, siyasi xadimlərimizin yaşadıqları dövrün siyasi xüsusiyyətlərini nəzərə almadan onların xidməti subyektiv mövqedən qiymətləndirilir. Beləliklə, onlar müxtəlif dövrlərin məfkurə təqibinə məruz qalırlar. Fikrimizcə, xalqın yetişdirdiyi hər görkəmli şəxsiyyətin fəaliyyəti və yaradıcılığı, fərqli düşüncə tərzi nəzərə alınmaqla tədqiq olunmalıdır. Nəriman Nərimanovun özünün fikrincə, əqidə – inanılan şey, etiqad, iman deməkdir. Yəni insan bir şeyə inanır, ona ibadət edir, onu hər şeydən müqəddəs bilib ruhunu, ağlını, tam vücudunu onun yolunda sərf etməyə çalışır. Gülsüm xanım da həyat yoldaşının siyasi fikirlərini paylaşır və zamanla onun silahdaşına çevrilir.

Gülsüm xanım Nərimanova 1915-1917-ci illərdən başlayaraq, fəal surətdə ictimai həyata atılır. Hər şeyə rəğmən doğma vətənini işğal etmiş bolşevik inqilabına dərin inamla yanaşan, xalqını, elini azad və firavan görmək arzusu ilə yaşayan bu qadın 17 yaşından başlayaraq müsəlman qadınlarının ağır vəziyyətini, cansıxıcı həyatını heç olmasa bir qədər dəyişdirmək üçün gecə-gündüz çalışmışdır. Onun ictimai fəaliyyəti, istər Bakıda, istərsə də Moskvada yaşadığı illərdə, əsasən xeyriyyəçiliklə bağlı olmuşdur. N.Nərimanov xeyriyyəçiliyin cəmiyyətin həyatında tutduğu yeri yüksək qiymətləndirirdi. Nəriman Nərimanov belə hesab edirdi ki, millətə yardım etmək üçün cəmiyyəti-xeyriyyə lazımdır, yəni millətin yetimlərinə, əlillərinə hər zaman kömək gərəkdir.

Gülsüm xanımı da xüsusi olaraq düşündürən ən mühüm məsələ valideynlərini itirmiş uşaqlara və övladları tərəfindən unudulmuş qocalara zəruri köməyin göstərilməsi olmuşdur. Bu amal sonadək onun həyatının ən müqəddəs vəzifəsi idi.

G.Nərimanova məqsədinə çatmaq üçün öncə aidiyyatı qurumlarla əlaqə qurmağa başlamış və bir müddət sonra Bakıda ilk əlillər evi, yetimxana və uşaq bağçaları təsis etməyə nail olmuşdur. O zaman hələ çox gənc olan Gülsüm xanımın mürəkkəb və ziddiyyətli bir dövrdəki fəaliyyəti təkcə bununla məhdudlaşmamışdır. O, müxtəlif təbəqələrin nümayəndələrinə və fərqli dövlət qurumlarına əlindən gələn maddi və mənəvi dəstəyini əsirgəməmişdir. Arxiv materialları arasında Azərbaycan Xalq Komissarları Soveti Mühafizə dəstəsinin Gülsüm xanıma ünvanladığı 192-ci il tarixli məktubu saxlanılır. Məktubda Mühafizə dəstəsinin heyəti göndərdiyi ərzaq payına görə ona öz minnətdarlığını bildirir [11].

G.Nərimanovanın sayəsində fəaliyyət göstərən yetimxanalarda və uşaq bağçalarında, əlillər evində təşkilati işləri aparmaq üçün savadlı mütəxəssislər çatışmırdı. Gülsüm xanım qərara gəlir ki, ilk olaraq özü təhsil almalı, inkişaf etməlidir. Yalnız bundan sonra xalqının bu köməksiz üzvlərinə öz elmi və biliyi ilə yardım göstərməlidir. Məhz buna görə bir muddət evdə öz üzərində çalışaraq savadını artırmışdır. Gülsüm xanım Nərimanova 1920-ci ilin noyabr ayında Bakıda müsəlman qadınları üçün açılmış İlk Frebel kurslarına daxil olmuş və məktəbəqədər uşaqlarla iş ixtisası üzrə bu kurslarda təhsilini başa vurmuşdur [4].

N.Nərimanovun Moskvaya yüksək vəzifəyə dəvət olunması Gülsüm xanımın doğma vətənində başladığı xeyriyyəçilik fəaliyyətini yarımçıq qoyur. O, oğlu ilə birlikdə həyat yoldaşını Moskvaya müşayət edir. Moskvada keçən ilk illəri onun üçün olduqca cansıxıcı keçmişdir. 1923-1925-ci illərdə G.Nərimanova ev xanımı kimi əsasən ailəsinin qayğıları ilə məşğul olmuşdur. Yalnız 1924-cü ildə Moskvada makinaçılar kursunu bitirmişdir. Lakin tezliklə onun bu qayğısız həyatına son qoyulur. Nəriman Nərimanovun 1925-ci il mart ayının 19-da qəflətən və müəmmalı şəkildə vəfat etməsi Gülsüm xanımı 6 yaşlı oğlu Nəcəflə yad

şəhərdə yalnız və həyatın sərt üzü ilə baş-başa qoyur. Nərimanovun vəfatından sonra Gülsüm xanım həyatının ağır mərhələsinə qədəm qoyub. Oğlu Nəcəfə yazdığı məktubları və müxtəlif idarələrə ünvanlanmış ərizələri bu qadının maddi cəhətdən necə çətinliklər çəkdiyindən, hansı sıxıntılar yaşadığından xəbər verir.

N.Nərimanovun vəfatından sonrakı ilk illərdə onun ailəsi V.İ.Leninin göstərişi ilə hələ onun sağlığından Xalq Komissarları Sovetinin yeməkxanası və Kreml poliklinikasının tibbi xidmətlərindən pulsuz istifadə edirdilər. Bu kiçik ailənin maddi durumuna olduqca böyük bir kömək idi. Lakin gözlənilmədən Nərimanovlar ailəsinin bu xidmətlərdən məhrum edilməsi onların ehtiyac və maddı sıxıntılarla üzləşməsinə səbəb olur. Sənədlərə əsasən, Gülsüm xanımın müxtəlif vəzifəli şəxslərə müraciətləri nəticəsində 1932-ci ildə ailənin yeməkxana və tibbi xidmətlərdən pulsuz istifadə hüquqları bərpa olunmuşdur [20].

Natamam təhsili və rus dilini yaxşı bilməməsi onun tam gücü ilə fəaliyyət göstərməyə hər zaman mane olmuşdur. Gülsüm xanım bunu özü yazdığı tərcümeyi-halında [3] və digər sənədlərdə dəfələrlə qeyd etmişdir [4, 2]. Ölkədə yaranmış həyatla ayaqlaşmaq məqsədi ilə Gülsüm xanım ilk növbədə bu nöqsanları aradan qaldırmağa başlamışdır.

Gülsüm xanım Nərimanova 1926-cı ildə Moskva Pokrovski adına fəhlə fakultəsinə daxil olmuş və 1930-cu ilin yaz aylarında fakültənin sosial-iqtisadi şöbəsini bitirmişdir [4]. Elə həmin ilin payızında Moskva Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasının Bağçılıq fakültəsinə daxil olmuşdur. Lakin 1931-ci ilin yanvar ayında öz xahişi ilə Zootexnika fakültəsinə keçmiş [1] və təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

Təhsil illərində belə elmi və ictimai fəaliyyətini davam etdirən Gülsüm xanım 1931-ci ildə Qərbi Sibirə, 1932-ci ildə isə Özbəkistana ezam olunmuşdur. Həmin illərdə o, artıq öz ixtisasına aid bir neçə elmi məqalə və kitabçaların müəllifi idi [7]. G.Nərimanova Özbəkistanda Mübarək sovxozunda çalışmışdır. O, burada silos hazırlanmasında və ot yığımında iştirak etmişdir. Gülsüm xanım Mərkəzi Asiya respublikalarının mürəkkəb və çətin illərində gecə-gündüz durmadan çalışmış, fəhlələrlə birlikdə silos üçün xəndəklər qazılmasında belə iştirak etmişdir. Hətta gecələri yatmayıb, at belində ot tarlalarına gözətçilik də etmişdir. Lakin Özbəkistanda sovetləşmənin əleyhinə olan və sosialist inqilabına qarşı döyüşən qüvvələr öz mübarizələrini davam etdirirdilər. Bu cür gərgin şəraitdə davam edən iş rejimi G.Nərimanovanın əsəb sisteminə, ümumiyyətlə sağlamlığına ciddi ziyan vurmuşdur. Bu səbəbdən də o, təcili olaraq Moskvaya geri dönüb müalicə almağa məcbur olmuşdur [8]. Səhhətində yaranan bu fəsadlardan ömrünün sonunadək əziyyət çəkmişdir. Bu barədə G.Nərimanovanın şəxsi arxivindəki çoxsaylı tibbi sənədlərdən məlumat almaq olur. Lakin xəstə olmasına baxmayaraq, Moskvaya dönən kimi yenə də kimsəsiz uşaqların problemləri ilə məşğul olmağa, uşaq bağçalarına əlindən gələn köməyi göstərməyə davam etmişdir.

1938-ci ildə cərrahi əməliyyat keçirən və artıq tam gücü ilə əmək fəaliyyəti göstərməyə qadir olmayan Gülsüm xanım növbəti dəfə Sovet dövlətinin çoxillik fəaliyyəti müqabilində onun üçün hazırladığı “minnətdarlıq” cavabı ilə qarşılaşır. Xəstə qadını və onun Leninqrad şəhərində (hazırkı Sankt-Peterburq) hərbi texniki tank məktəbində təhsilini davam etdirən, cəmi 60 rubl təqaüd alan oğlu Nəcəfi ikinci dəfə yeməkxana və pulsuz tibbi xidmət hüququndan məhrum edirlər. Şəxsi arxiv materialları arasında kitabxanasından kitab satmaqla həm özünü dolandıran, həm də tələbə oğluna yardım etməyə məcbur olan Gülsüm xanımın Sovet hökumətinin məsul şəxslərinə müraciətlə yazılmış acizanə xahiş dolu məktub və ərizələri saxlanılır [18]. Bu hal II Dünya müharibəsindən sonrakı illərə kimi davam etmişdir.

Gülsüm xanım neçə illər Moskvada yaşamasına baxmayaraq, doğma vətənini də unutmamış, Azərbaycan SSR-in də ictimai həyatında yaxından iştirak etməyə çalışmışdır. Sənədlərə əsasən 1930-cu il mart ayının 5-də ona Azərbaycanın sovetləşməsinin yubileyi ilə

əlaqədar tədbirlərdə iştirak etmək üçün 7 günlük məzuniyyət verilmişdir [20]. 1930-cu ildə Azərbaycan Dövlət muzeyi tərəfindən ona rəsmi müraciət olunmuşdur. Müraciətə əsasən muzeyin rəhbərliyi Gülsüm xanımdan N.Nərimanovun vəfatının 5-ci ildönümü ilə bağlı olaraq ona aid materialların muzeyin fonduna təhvil verməsini xahiş etmişdi. Gülsüm xanıma göndərilən təşəkkür məktubunun məzmunundan məlum olur ki, o, muzey rəhbərliyinin xahişini yerinə yetirmişdir [22].

Arxiv materialları arasında Gülsüm xanıma Bakıdan Alagöz adlı xanımın 1932-ci il tarixli bir məktubu da maraq doğurur. Məktubun məzmunundan aydın olur ki, G.Nərimanova müntəzəm olaraq Bakıdakı tanışlarının vəziyyəti ilə maraqlanmış və onlara maddi yardım göstərmişdir [17].

II Dünya müharibəsinin 1941-1945-ci illəri G.Nərimanovanı Lvov şəhərində haqlamışdır. Həmin illərdə Qızıl Ordunun zabiti Nəcəf Nərimanov komandir kimi bu şəhərdə xidmət edirdi. Oğlu ilə görüşməyə gedən Gülsüm xanım müharibənin ilk illərinin dəhşətini sonralar Sovet qadınlarının antifaşist komitəsində fəaliyyət göstərdirdiyi zaman İngiltərə qadınlarına yazdığı müraciətində qələmə almışdı. O xatirələrində bu haqda belə yazırdı: "Faşist yırtıcılarının gözlənilməz dəhşətli hücumları gözlərimin qarşısında baş verirdi. Almanlar şəhər küçələrində qorxu içində dolaşan qadınları və uşaqları pulemyotlardan atəşə tuturdular. Lvovdan gələn qatarda bizimlə gələn qadını heç vaxt unutmayacağam. O, ağlını itirmişdi və aramsız olaraq faşistlər tərəfindən güllələnmiş 5 yaşlı qızı Lenanı haraylayırdı. Ölmüş oğlanın qoca anası da gözlərimin qarşısındadır… Xalqımız hitlerçi cəlladların dinc əhalinin başına gətirdiyi vəhşilikləri heç vaxt onlara bağışlamayacaq" [3].

Gülsüm xanımın müharibə illərində qayğısı daha da artmışdı. Ata-anasız və ümumiyyətlə kimsəsiz qalmış uşaqların problemləri onu dəhşətə gətirirdi. "Bu kimsəsiz uşaqların həyatını necə qorumaq olar?" sualı onu rahat buraxmırdı.

Müharibənin ilk aylarında Moskva şəhərinin bir çox sakinləri kimi Gülsüm xanım da təxliyə edilmişdi. O təxliyə müddətində Daşkənd şəhərində yaşamışdır. Arxiv materialları arasında onun Daşkənd şəhərinin sakinləri ilə sonralar da əlaqəsini davam etdirdiyini əks etdirən bir sıra məktublar saxlanılır [14, 15]. Məktubların məzmunundan məlum olur ki, Gülsüm xanım Özbəkistanda Uşaqların təxliyə komissiyasında, yaşlıların və xəstələrin ictimai təminatı idarələrində, Mərkəzi məişət komissiyasında yorulmaq bilmədən çalışmış, burada da ardıcıl olaraq xeyriyyəçilik və antifaşist fəaliyyətini davam etdirmişdir.

1943-cü ildə Gülsüm xanım Moskvaya geri dönür. O burada Antifaşist Qadın komitəsinin fəal üzvü kimi fəaliyyətini davam etdirmişdir. G.Nərimanova bu işə məhz uşaqlara yardım etmək və onlara qayğı göstərmək məqsədi ilə başlamışdı. Sonradan hərbi xəstəxanalarda oğlu Nəcəfi xatırladan əsgərlərə xidmət etmək, onlar üçün mədəni istirahət gecələri keçirmək fəaliyyətinin əsas istiqaməti olmuşdu. O ətrafında üzügülər əsgərlər görəndə özünü xoşbəxt hiss etdiyini qeyd edirdi. Çünki Gülsüm xanımın yeganə övladı – Nəriman Nərimanovun yadigarı Nəcəf də alman-faşist işğalçıları ilə müharibənin ön sıralarında döyüşürdü. Artıq üç il idi o, Nəcəflə yalnız məktub vasitəsilə görüşüb dərdləşə bilirdi. Gülsüm xanımın şəxsi arxivində saxlanılan materialların əsas hissəsini məhz bu məktub və xatirələri təşkil edir.

Gülsüm xanım hospitallarda müalicə olunan yaralı döyüşçülərə öz oğlu kimi qulluq edirdi. Buna görə də müxtəlif hərbi hospitalların zabit-həkim heyətindən dəfələrlə təşəkkür məktubları almışdır. Maraqlı cəhət odur ki, Gülsüm xanım əsasən qeyri-rus əsgər və zabitlər arasında iş aparmışdır. Bu qrup, başlıca olaraq, Mərkəzi Asiya respublikalarından çağırılan döyüşçülər idi. G.Nərimanovanın bu fəaliyyəti tibbi müəssisələrin siyasi şöbələri tərəfindən xüsusilə yüksək qiymətləndirilmişdi [6].

Mürəkkəb və əziyyətli həyat yolunda G.Nərimanova növbəti və dözülməsi mümkün olmayan daha ağır bir dərdlə üzləşdi. Moskvaya döndüyü 1943-cü ildə Gülsüm xanım yeganə övladını – Nəcəf Nərimanovu itirdi. Onun "Nəcəf, sən Nəriman Nərimanovun oğlusan, bilirəm ki, bunu heç vaxt unutmayacaqsan. Sənin qismətinə Vətənini faşist rəzillərindən qorumaq kimi şərəfli bir vəzifə düşüb. Onların törətdiklərinə qarşı nifrət və qəzəbimi ifadə edəcək söz tapa bilmirəm. Bu yırtıcılar bizim xoşbəxt həyatımızı pozdular… Lakin əminəm ki, səninlə görüşəcəyəm, biz xoşbəxt yaşayacağıq" [7] deyə yazdığı son məktubu Nəcəf Nərimanova çatmadı və Gülsüm xanım yeganə övladı ilə bir daha görüşə bilmədi. Nəcəf isə son məktubunda "Ana, mən də sənin üçün darıxıram və inanıram ki, arzularımız yerinə yetəcək, tezliklə sakitcə və xoşbəxt yaşayacağıq" [7] – deyə yazmışdı. Lakin bu məktubu Gülsüm xanım o həlak olduqdan sonra almışdı.

Nəcəf Nərimanov 1943-cü il sentyabr ayının 10-da Rostov şəhərində faciəli surətdə dünyasını dəyişmişdir. Ən acısı isə o idi ki, Nəcəf döyüşlər zamanı deyil, Moskvaya yola düşmək ərəfəsində, dəmiryol vağzalında həlak olmuşdur. Üç illik ayrılıqdan sonra Gülsüm xanımın ardıcıl xahişlərini nəzərə alaraq, Nəcəf Nərimanova məzuniyyət verilir. Lakin alman qüvvələrinin hava hücumu 24 yaşlı gəncin həyatına son qoyur. Gülsüm xanım övladının timsalında həm dostunu, həm də həyat yoldaşını bir daha və bu dəfə əbədi olaraq itirir. Bu hadisədən sonra G.Nərimanova artıq bir daha, bir an olsun belə özünü düşünmür. Bundan sonra o, ömrünün hər anını kimsəsiz uşaqların rifahına və Nəcəfin xatirəsini yaşadacağına söz verir. Keçmiş Sovet İttifaqının hər guşəsindən Nəcəf Nərimanovun həlak olması ilə bağlı olaraq Gülsüm xanıma başsağlığı məktubları göndərilirdi. Sadə vətəndaşların bu məktubları ağır günlərində Gülsüm Nərimanovanın dayağı olmuşdur.

II Dünya müharibəsi başa çatdıqdan sonra Gülsüm Nərimanova oğlunun xatirəsini əbədiləşdirmək üçün müxtəlif səlahiyyətli qurumlara müraciət etməyə başlamış [19] və sonunda istəyinə nail olmuşdur. 1949-cu il may ayının 1-də Donbas vilayətinin Volnovaxa şəhərində Nəcəf Nərimanovun abidəsinin açılış mərasimi keçirilmişdir. Gülsüm xanıma göndərilən məktublardan aydın olur ki, abidənin foto şəkilləri sonradan Volnovaxa şəhər İcraiyyə Komitəsi tərəfindən ona göndərilmişdir [21].

Gülsüm xanım Nərimanovanın şəxsi arxivindəki materiallardan məlum olur ki, Nəcəf Nərimanov məktəb illərindən təhsilinə ciddi münasibəti və çalışqanlığı ilə yaşıdlarından seçilmişdir. Gənc yaşlarında ingilis, alman və türk dillərinə mükəmməl yiyələnmişdir [6]. O, müharibə sona çatdıqdan sonra Moskvada Xarici Dillər İnstitutuna daxil olmaq arzusunda idi. Cəbhəyə zabit kimi yola düşən Nəcəf bütün əsgər yoldaşlarının sevimlisi olmuşdur. Döyüşdüyü müddətdə iki dəfə yaralanan Nəcəf Nərimanov "Stalinqradın müdafiəsinə görə" və "Rəşadətə görə" medalları ilə təltif edilmişdir. 1942-ci il mart ayının 7-də Saratov xəstəxanasında müalicə olunan Nəcəfin Nəriman Nərimanovun oğlu olduğunu bilən tibb bacısı Gülsüm xanıma rəğbət və hörmət dolu məktub göndərmişdi [13].

Bu faciədən sonra tənha qalmış G.Nərimanova artıq bütün qüvvəsini yalnız kimsəsiz uşaqların tərbiyə olunduğu uşaq evlərinin problemləri ilə məşğul olmağa yönəltmişdi. O, Moskva, Volnovaxa və Bakıdakı uşaq evlərini hamiliyə götürüb, onların təchizatı ilə məşğul olmuş, körpələrə, balaca uşaqlara analıq qayğısını daha da artırmışdı. Fondda yerləşən müxtəlif rəsmi məktublardan məlum olur ki, Moskva şəhərinin Maarif şöbəsi Gülsüm xanımı bərbad vəziyyətdə olan uşaq evlərinin vəziyyətini nizamlamaq üçün tez-tez bir uşaq evindən digərinin hami şurasına təyin edirmiş. Həmin uşaq evlərindən göndərilən təşəkkür dolu məktub və teleqramlar da buna gözəl sübutdur. Onun nəcib əməlləri bu məktublarda öz əksini tapmışdır. Moskva Protez-Bərpa İnstitutunda müalicə olunan uşaqların Gülsüm xanıma yazdığı məktub bunların bir nümunəsidir. Məktubda yazılır: "Əziz yoldaş Nərimanova! Bizim həyatımızda iştirakınız və bizim üçün etdiyiniz fədakarlıqlar haqqında hər şeyi yaxşı

bilir və Sizi çox gözəl anlayırıq. Şəxsi həyatınızda baş vermiş fəlakətə və vilayətin uşaq evləri üzrə hamilik şurasının sədri kimi məsul bir vəzifədə çalışdığınıza rəğmən, o böyük ürəyinizlə bizim kimi uşaqlara qayğı göstərməyə də zaman və imkan tapırsınız. Eşitdik ki, Siz bizə ərzaq, yolka və 1 May bayramı üçün çoxlu hədiyyələr göndərməyə çalışırsınız. Bizim üçün, Vətən müharibəsində ana və atalarını, yaxınlarını itirmiş bir çox şikəst uşaqlar üçün Sizin bu qayğınız olduqca qiymətlidir. Bu Sizin bizə təkcə maddi deyil, həm də mənəvi dəstəyinizdir. Bilirik ki, həyat yoldaşınız bolşevik idi və yeganə oğlunuz Vətən müharibəsi cəbhəsində həlak olmuşdur. Belə bir insanın bizə göstərdiyi qayğı xüsusilə qiymətlidir… Məhəbbətiniz, səmimiyyətiniz bizdə cəsarət və gələcəyə inam doğurur" [16]. Qeyd etmək lazımdır ki, G.Nərimanovanın şəxsi arxiv materialları arasında fərqli uşaq evlərindən çoxlu sayda eyni məzmunlu məktublar cəmlənmişdir.

Arxivdəki sənədlər göstərir ki, həyat yoldaşı vəfat etdikdən sonra müxtəlif çətinliklərlə üzləşən Gülsüm Nərimanova ruhdan düşmədən bir çox ictimai vəzifələrdə fəaliyyətini davam etdirmişdir. O, 1945-ci ildə Moskva vilayətinin Puşkin şəhərində Timiryazev adına uşaq evinin hami sovetinin sədri, 1946-cı ildə Qırmızı Xaç Komitəsinin hami komissiyasının üzvü kimi çalışmışdır.

Gülsüm Nərimanovanın vəfatı haqqında məlumatı başsağlığı məktublarından almaq mümkündür. Gülsüm xanım 1953-cü il oktyabr ayının 21-də, 55 yaşında Moskva şəhərində vəfat etmişdir. Qardaşı Aslana göndərilən başsağlığı teleqramlarının məzmunundan [23] məlum olur ki, elə burada da dəfn edilmişdir (Moskvadakı Vaqankovskoye məzarlığında). Bütün ömrünü – gəncliyini, gəlinliyini, analığını sadə xalqın xidmətinə sərf etmiş, Sovet İttifaqı Kommunist Partiyasının siyasətinin davamlı və hər şeyə rəğmən təmsilçisi olan Gülsüm Nərimanovanın xatirəsini əbədiləşdirmək üçün Sovet dövləti demək olar ki, heç nə etməmişdir.

Fəal hamilik fəaliyyətinə görə Gülsüm xanım Nərimanova Moskva Hərbi Dairəsinin, Moskva Şəhər Səhiyyə Şöbəsinin, Hərbi Xəstəxana komandanlığının fərmanları, müxtəlif qurumların təşəkkürnaməsinə layiq görülmüş, "Almaniya üzərində qələbəyə görə" medalı ilə təltif edilmişdir. O, Moskva şəhər Qırmızı Xaç Komitəsinin hami komissiyasının üzvü olmuş, "SSRİ-nin sanitar mühafizəsi əlaçısı" döş nişanı ilə mükafatlandırılmışdı.

**Nəticə**

*Gülsüm xanım Nərimanovaya məxsus sənədli materiallar XX əsrin əvvəllərində ictimaiyyətçi və xeyriyyəçi kimi formalaşmış bir Azərbaycan qadının həyat yolunu izləməyə imkan verir. Bu arxiv materialları vasitəsilə qismən həm Nəriman Nərimanovun fəaliyyəti və cəmiyyət tərəfindən qiymətləndirilməsi, həm də Qızıl Ordunun zabiti olan oğlu Nəcəf Nərimanovun həyat və döyüş yolunu işıqlandırmaq mümkündür. Bütövlükdə bu sənədlər vasitəsilə XX əsrin I yarısında Sovet dövlətinin ictimai-siyasi və ədəbi-mədəni durumunun bəzi məqamlarını aydınlaşdırmaq olar. Tədqiqat zamanı bir daha əmin oluruq ki, tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini, yaradıcılığını qiymətləndirərkən zamanın prizmasından çıxış etmək zəruridir. Bunu isə onların yaratdığı əsərləri, onlara məxsus epistolyar irsi və memuarları, şəxsi sənədləri təhlil və tədqiq etməklə həyata keçirmək daha məqsədəuyğundur. Məhz bu materiallar bütövlükdə bir sıra ictimai-siyasi prosesləri düzgün qiymətləndirməyə xidmət edir.*

**Ədəbiyyat siyahısı:**


1. Nərimanov N. Tələbə bileti. AMEA ƏYİ, f. 18, s.v. 107
2. Nərimanov N. Qeyd. AMEA ƏYİ, f. 18, s.v. 115
3. Nərimanov N. Sovet qadınlarının antifaşist komitəsi. AMEA ƏYİ, f. 18, s.v. 117
4. Nərimanov N. Tərcümeyi-hal. AMEA ƏYİ, f. 18, s.v. 118
5. Nərimanov N. Tərcümeyi-hal. AMEA ƏYİ, f. 18, s.v. 120
6. Nərimanov N. Xasiyyətnamə. AMEA ƏYİ, f. 18, s.v. 122
7. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 123
8. Nərimanov N. Çıxarış. AMEA ƏYİ, f. 18, s.v. 125
9. Nərimanov N. Doğum haqqında şəhadətnamə (surəti). AMEA ƏYİ, f. 18, s.v. 127
10. Nərimanov N. Doğum haqqında şəhadətnamə. AMEA ƏYİ, f. 18, s.v. 128
11. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 132
12. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 134
13. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 142
14. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 151
15. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 157
16. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 159
17. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 162
18. Nərimanov N. Ərizə. AMEA ƏYİ, f. 18, s.v. 166
19. Nərimanov N. Teleqram. AMEA ƏYİ, f. 18, s.v. 168
20. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 171
21. Nərimanov N. Məktub. AMEA ƏYİ, f. 18, s.v. 172
22. Nərimanov N. Teleqram. AMEA ƏYİ, f. 18, s.v. 176
23. Nərimanov N. Başsağlığı teleqramları. AMEA ƏYİ, f. 18, s.v. 180


**Aytan Imanova**

**Research about Gulsum Narimanova (based on personal archive documents)**


The article studies the life and social activities of Gulsum Narimanova, the wife of the famous public figure of Azerbaijan-Nariman Narimanov. The life path of G.Narimanova is based on her personal documents. G.Narimanova's documents are kept in the materials of N. Narimanov's personal archive. There are 150 documents in N.Narimanov's personal archive that are related to Gulsum Narimanova. This includes an autobiography, articles and essays by G.Narimanova, documents related to her guardianship and social activities in general. As well as her memories and correspondence with her son Najaf Narimanov.

One of the characteristic features of Azerbaijani historiography is that it is closely related to the literary heritage of our intellectuals. The materials collected from the personal archives that belong to fiction representatives, who were also involved in social and political activities, are an invaluable source for researchers in clarifying important aspects of our history. At the same time these materials played an essential role in establishing some historical facts in different periods of history.

Gulsum Narimanova witnessed two world wars, two revolutions and political rebellions in the history of Russia, the period of the establishment and collapse of the first democratic republic, inter-ethnic hatred and genocide in the history of Azerbaijan. And she shared her life with such an outstanding person as Nariman Narimanov. From this point of

view, materials from the personal archive of G.Narimanova are of particular importance for the study of the history of the first half of the twentieth century.

***Key words:*** *Gulsum khanum, personal archive, orphanage, Najaf, letter.*

**Айтен Иманова**

**Новые исследования о Гюльсум ханум Наримановой (на основе личных архивных документов)**

В статье исследуется жизнь и общественная деятельность Гюльсум ханым Наримановой, супруги известного общественного деятеля Азербайджана Наримана Нариманова. Жизненный путь Г.Наримановой освещается на основе ее личных документов, которые хранятся в материалах личного архива Н.Нариманова и составляют 150 единиц. Сюда входят ее автобиография, написанные Г.Наримановой статьи и очерки, документы, касающиеся ее попечительской и общественной деятельности в целом, а также воспоминания и переписка с сыном Наджафом Наримановом.

Одна из характерных черт азербайджанской историографии состоит в том, что она тесно связана и с литературным наследием нашей интеллигенции. Материалы, собранные в личных архивах представителей художественной литературы, которые занимались также и общественно-политической деятельностью, являются бесценным источником для исследователей в прояснении важных аспектов нашей истории, и установлении важных исторических фактов разного периода.

Гюльсум ханым Нариманова прожила жизнь на перепутье двух мировых войн, двух революций и политических переворотов, произошедших в России, период создания и падения в Азербайджане первой демократической республики, межнациональной розни и геноцида в истории Азербайджана. Она разделила свою жизнь с таким выдающимся человеком, как Нариман Нариманов. С этой точки зрения материалы личного архива Г.Наримановой имеют особое значение для исследования истории первой половины XX века.

***Ключевые слова:*** *Гюльсум ханым, личный архив, детский дом, Наджаф, письмо.*

Filologiya üzrə elmlər doktoru
**Nailə Səmədova** tərəfindən çapa tövsiyə olunmuşdur.